Bir qanadlı quş oldu uşaqlıq zamanları,
Demirəm ki, eşqimi, sevincimi apardı.
İndi yada salıram bircə-bircə onları.
Ah, o günlərimin də başqa aləmi vardı!

İndi də oturmuşam haman qayanın üstə,
Axşam düşür, qaranlıq gərir öz qanadını,
Quşlar, yenə o quşlar, ötüşür dəstə-dəstə,
Mən tapıram qayada nəqş olunmuş adımı.

Yenə də nəzərlərim dikilir göy sulara,
Ulduzlarını sayrışır ləpələrdə görəsən?
Yox, yox yanılıram mən, ulduz hara, su hara?
Buruqlardır, neft çəkir göy Xəzərin dibindən.

İndi Xəzərin özgə hüsnü var, aləmi var,
İnsan oğlu onun da sinəsini bəzəyir.
Dalğaların qoynunda işıq saçan buruqlar
Cərgə ilə düzülmüş adalara bənzəyir.

Budur, yenə də ötdü havada bir dəstə quş,
Bir şamayı atılıb düşdü suya təzədən...
Qəlbim indi başqa bir gözəlliyə vurulmuş,
Uşaqlıq günlərimi unutmuram yenə mən.

İndi bu, sahillərə baxdıqca heyran-heyran
Görürəm ki, dəyişmiş qurular da, sular da.
Bu azad ölkəmizdə xoşbəxt yaşayan insan
Öz qadir əllərilə od axtarır sularda.

Hardasınız, qayıdın, ey uşaqlıq günləri,
Mən bu gözəl aləmə vermişəm öz qəlbimi.
İstəyirəm bu doğma, qayalı sahilləri
Dolanam uşaq kimi, sevəm bir böyük kimi!



# Nəğmələr

## SƏN MƏNİM, MƏN SƏNİN!

Qara gözün aldı canım,
Aldı canım,
Qəlbimdədir arzu, – kamım,
Arzu kamım.
Gözəllərə naz yaraşır
Naz yaraşır,
Vüsalına var gümanım
Var gümanım.
Gül gözəl,
Bil, gözəl
Sən mənim
Mən sənin.
Gəzdim Azərbaycanı
Tapdım sənin kimi ceyranı.
Gəl mənə naz eyləmə
Olum gözlərinin qurbanı.
Gül, gözəl,
Bil, gözəl,
Sən mənim
Mən sənin.
Ətirli güllər üzərəm
Üzərəm mən.
Tellərini mən bəzərəm
Bəzərəm mən.
Sən elimin göyçəyisən
Göyçəyisən.
Hər dərdinə mən dözərəm
Dözərəm mən.

Gül, gözəlim,
Bil, gözəlim,
Sən mənim,
Mən sənin.
Gəzdim Azərbaycanı
Tapdım sənin kimi ceyranı.
Gəl mənə naz eyləmə
Olum gözlərinin qurbanı,
Gül gözəlim,
Bil, gözəlim,
Sən mənim,
Mən sənin.

## "LİRİK MAHNI"

Süzə-süzə gəzdim
Bu elləri
Telə-telə düzdüm
Mən gülləri.
Baxa-baxa yollara
Axtarıram yarı mən.
Şirin sözüm gəlmədi,
İki gözüm gəlmədi.
Könül verib sevdiyim,
Harda qaldı gəlmədi?
İlk bahar gəldi,
Durnalar gəldi,
Bircə sən gəlib çıxmadın,
Harda qalmısan?

Dağa-daşa düşdü
Gün işığı.
Mən olmuşam ay aman
Yar aşiqi,
Dərə-dərə gülləri
Dolaşıram elləri.



Qızıl gülüm solmasın
Sənsiz günüm olmasın.
Gözəlisən ellərin,
Əzbərisən dillərin.
Gəlməsən, ay aman,
Bilməsən, ay aman
Könlümün sözü alışar
Yandırar məni.

## NƏ OLAR?

Sən ey könlümün dostu, sirdaşı,
Niyə küsürsən hər qədəm başı?
Gəl ətəyindən gözəl, tök daşı,
Mənim öz gülümsən,
Şeyda bülbülümsən,
Nə olar bir yol
Üzümə gülsən?

Azərbaycanın çoxdur gözəli,
Maral baxışlı, sözü məzəli,
Sən mənim yarım, ilkim, əzəlim.
Mənim öz gülümsən,
Şeyda bülbülümsən,
Nə olar bir yol
Üzümə gülsən?

Hər görən deyir Ceyrandır, sənə,
Bütün bu aləm heyrandır sənə,
Zeynalın canı qurbandır sənə
Mənim öz gülümsən,
Şeyda bülbülümsən,
Nə olar bir yol
Üzümə gülsən?

## "LAYLAY"

Yat gözümün qarası,
Ciyərimin parası.
Laylay ürəyim laylay,
Arxam, direyim laylay.

Göydə bulud sovuşsun,
Kirpiklərin qovuşsun.
Laylay quzum a laylay,
İki gözüm a laylay.

Sən nə şirin balasan,
Görüm yüz il qalasan!
Laylay baharım laylay.
Laylay nübarım laylay.

## GƏLDİ BAHAR

*"Onu bağışlamaq olarmı?" filmindən*

Elimin, yurdumun çox baharı var,
Solmayan, al-yaşıl laləzarı var,
Sevən aşiqlərin düz ilqarı var,
Gəldi bahar,
Güldü bahar
Baxtımız kimi.

Canımı verərəm yara sadağa,
Sevmək vətənimdə deyil qadağa,
Amandır, gözümdən getmə uzağa
Gəldi bahar.
Güldü bahar,
Baxtımız kimi.



## VAXT OLAR...

Hər yanda al-əlvan
Çiçək açılır,
Baxdıqca üz gülür,
Ürək açılır.
Bəs nə üçün yerində tutmayır qərar
Arzular, arzular, şirin arzular.

Həyatım, gəncliyim
Bəxtəvər azad.
Məhəbbət insana
Verir qol-qanad,
Çataram mən sizə bir gün vaxt olar,
Arzular, arzular, şirin arzular.

## LİRİK MAHNI

*"Onu bağışlamaq olarmı?" filmindən*

Yenə gəldi ilk bahar
Yaz gülə-gülə.
Bu qədər gəl etmə yar
Naz gülə-gülə.
Səni sevdim qəlbimlə
Ey gözəl pəri
Mənə söylə bir şirin
Söz gülə-gülə.
Mən aşiq bəndəm gülə,
Bülbüləm bəndəm gülə
Xəstəyəm qalıb əlacım
Bir şirin dilə,
Sevən aşiq a gülüm
Görməz dünyanı.
Qara qaşın, ağ üzün
Olum qurbanı.

Niyə məndən gizlədirsən
Eşqini sən?
Mən aşiq bəndəm gülə,
Bülbüləm bəndəm gülə
Xəstəyəm qalıb əlacım
Bir şirin dilə.
Açılıb hər yan çiçək,
Bax, gözəl-gözəl.
Telinə əlvan çiçək
Tax gözəl-gözəl.
Yanıram hicrinlə mən
Dön sərin suya.
Ürəyimə sel kimi
Ax gözəl-gözəl.
Cavan ömrüm şad olar
Səslər hər yanı.
Qara qaşın, ağ üzün
Olum qurbanı.
Niyə məndən gizlədirsən
Eşqini sən?
Mən aşiq gələr yarım,
Dərdimi bilər yarım,
İnanıram dərmanımı
Eyləyər yarım.

## LİRİK MAHNI

*"Onu bağışlamaq olarmı?" filmindən*

Mən qəlbimi hər gözələ
Verməərəm inan.
Mən hər gülü hər çiçəyi
Dərməərəm inan.
Səni, təkcə səni sevdim
Ömrüm baharında mən.
İnan eşqimə gözəl yar
Düzəm ilqarımda mən.



Hər yanda bax gül açılıb
Gəl gözəl pəri.
Olmuş adın el içində
Dillər əzbəri.
Gözəl, olma məndən ayrı
Ürəyimdə var yerin.
Çıxmır xatirimdən bir an
Sənin qara gözlərin.

## BADAMLI

Badamlı,
nə sərin.
Badamlı,
nə şirin.
Badamlı,
adı var.
Badamlı,
dadı var.
Dərdlərin dərmanı,
Belə su, de hanı?
Axtar, dolan bu dünyanı hey,
Bəh, bəh nə gözəl suyu var
Bizim Azərbaycanın!
İç onu, ürəyin qoy sərin olsun!

Badamlı,
qazı var.
Onun da,
bazı var.
Sezonu,
yaz olur.
Heyf ki,
az olur.
Dərdlərin dərmanı,
Belə su, de hanı?

Axtar, dolan bu dünyanı, hey,
Bəh, bəh nə gözəl suyu var
Bizim Azərbaycanın.
İç onu, ürəyin qoy sərin olsun!

Badamlı,
lal axır.
Badamlı,
bol axır.
Bulaqdan,
su çıxır,
Deyirsən
bal axır.
Dərdlərin dərmanı,
Belə su, de hanı?
Axtar, dolan bu dünyanı hey,
Bəh, bəh nə gözəl suyu var
Bizim Azərbaycanın.
İç onu, ürəyin qoy sərin olsun!

## GƏNCLİYİM

Gəncliyimiz allı-güllü bahardır,
Heç solmayan gül-çiçəyi var onun.
Öz əliylə ağ günləri yaradır,
Daha xoşbəxt gələcəyi var onun.

Dağ yarır gəncliyim,
Bağ salır gəncliyim,
Baş alıb göylərə
Ucalır gəncliyim!

Göy Xəzərdə buruqların meşəsi,
Dayanmışdır sular üstə min ada.
Gəncliyimin azad əmək nəğməsi
Havalansın, qoy gurlasın dünyada!



Dağ yarır gəncliyim,
Bağ salır gəncliyim,
Baş alıb göylərə
Ucalır gəncliyim!

Eşq olsun bu şən həyata, əməyə!
Çağır gəlsin cavan qızı, oğlanı.
Qoşul, qoşul bizim bu şən nəğməyə,
Heyran edək mahnımızla dünyanı!

Dağ yarır gəncliyim,
Bağ salır gəncliyim,
Baş alıb göylərə
Ucalır gəncliyim!

## QƏZƏL

*"Koroğlu" filmindən*

Meydan dolanır başıma aləm, bəri gəl, bir!
Zəhr ilə dolar yoxsa piyaləm, bəri gəl, bir!

Röya kimi qoy gəlməsin ey dost, sənə dünya,
Mən, tazə güləm, sanma xəyaləm, bəri gəl bir!

Naz məndə, avaz məndə, çinar qaməti məndə,
Bax, bax, necə görə Leyli misaləm, bəri gəl, bir!

Sənsiz nə günüm var, nə gecəm gözləyirəm, gəl,
Yoxsa ucalır göylərə nalə̇m, bəri gəl, bir!

Zeynal, özünə bir belə aludəlik etmə!
Aqil deməz aqildə kəmaləm, bəri gəl, bir!

## OLMAZ!

Kim deyir yoxsa vüsal, aşiqə dərman olmaz?
Əsil aşıq sevər, amma yara qurban olmaz.
Sevginin ləzzəti ölməkdə, əziyyətdə deyil,
Belə bir sevginin heç ömrü də bir an olmaz.
Vaxt olur, fürsət olur bir danışıb, bir gülürük,
Bəlkə də sən deyirsən: "belə oğlan olmaz!"
Baxtıma küsməyirəm, hər sevən almaz yarını,
Hər sevən vəslə çata, dünyada hicran olmaz.
Demə Zeynal əriyər şam kimi hicrimlə mənim,
Vətənin eşqi kimi qüvvəli loğman olmaz.

## AZ GƏLİR

Sənin eşqin üçün inan, ey mələk,
Ölməyə hazıram mənə az gəlir.
Oturub gecələr bəzən sübhədək,
Şerlər yazıram, mənə az gəlir.

Bir sənsən deyirəm ömrümün şahı,
Üzün ay misalı, boyun sürahı,
Oğrun baxışını, çəkdiyin ahı,
Min yerə yozuram, mənə az gəlir.

Canım sənin üçün qoy getsin bada,
Səndən uzaq olsun təki qəm-qada,
Əzizim kim varsa inan, dünyada,
Qəlbimdən pozuram, mənə az gəlir.

## YALVARA-YALVARA

Gül üzlü yar bəyənmişəm.
Nazın çəkmək olub peşəm,
Rəhm eylə, pisdir demişəm,
Halım, yalvara-yalvara.



Görməmişəm ədasını,
Gözləyirəm sevdasını,
Deyirəm ki, qadasını,
Alım, yalvara-yalvara.

Eşq əlindən gəldim dada,
Axır məni saldı oda,
Ölüm, yoxsa bu dünyada,
Qalım, yalvara-yalvara.

## SƏNİN ÜÇÜN

Yağış gələr, səpələr,
Ay sürüş olar, təpələr.
Neylim əlim çatmayır
Qorxuram tutub, öpələr.

Qaş ilə göz arası.
Çıxıbdır ayın parası.
Bu dərd məni öldürər,
Bir sənsən onun çarası.

Gün batar qaş qaralar
Ay yarı yardan aralar.
Səhərəcən ağrıyar
Ay ürəyimdə yaralar.

Umudum ay umudum
Ay səni necə unudum.
Yaşayıram yar üçün,
Yoxsa bir ovuc qumudum.

## DEYİN

O ğ l a n:
Gedin deyin nazlı yara
Günümü etməsin qara,
Bir gün yoldur burdan ora,
Gəldim dolana-dolana.

Q ı z:
Eşqim edib naçar məni,
Şirin sözü açar məni,
Birdən qoyub qaçar məni,
Deyin oğlana-oğlana.

O ğ l a n:
Necə gəlir buna dili,
Sınsın bimürvətin beli
Yurdum Azərbaycan eli.
Qaça bilmərəm heç yana
Deyin canana-canana.

Q ı z:
Yola salın o oğlanı,
Göndərsin bizə nişanı,
Sürək bu gözəl dövranı,
Sevib inana-inana,
Sevib inana-inana.

## GÖZ GÖRÜB

Ay qara gözün, badamı,
Ay tora salır, adamı.
Çağırıram yar, səni,
Ay eşitmirsən sədamı.



Gəl mənə baxma, naz ilə,
Dindirmə acı söz ilə.
Özgəsinə baxmaram,
Ay dünya dolsa, qız ilə.

Göz görüb ürək vurulub,
Ay dərya könlüm durulub.
Ay min il çəkər nazını,
Zeynal heç deməz yorulub.

## SƏN DÜZƏ ÇIXANDA

Elim başdan-başa yazdır.
Əlimdə üç telli sazıdır,
Bu nə qəmzə, bu nə nazdır,
Eyləyirsən bizə, ay qız?

Elin yurdun Azərbaycan,
Adını eşidib hər yan.
Tarlalarda tülək tərlan,
Gəlməyəsən gözə ay qız.

Qonaq olsan bizim bağa,
Bülbül başlar oxumağa,
Pambıq tayı dönər dağa,
Sən çıxanda düzə, ay qız.

Belə gözəl zaman olmaz,
Sənin kimi canan olmaz,
Bu dövrandan inan olmaz,
Qismət olmuş bizə ay qız.

## ÇAĞIR GƏLSİN

Xəbər apar nazlı yara,
Şux cananı çağır gəlsin.
Məclisimə, şadlığıma,
Bu dünyanı çağır gəlsin!

Qoy bəzənsin başdan başa,
Nazəninlər al qumaşa,
Nur çilənsin dağa-daşa,
Xoş dövranı çağır gəlsin!

Cənnət edək şən diyarı,
Süfrəmizdə elin varı,
Yeri, göyü, dəryaları,
Asimanı, çağır gəlsin!

## BİLƏ-BİLƏ

Dindirirəm, könlüm açan
Söz demirsən, bilə-bilə.
Bəlkə mənə öz eşqini
Düz demirsən, bilə-bilə?

Mənə xəbər göndərirsən,
Sevməyirəm, bilə-bilə!
Görəndə üz döndərirsən,
Sevməyirsən, bilə-bilə.

Bir gün sənə öz eşqimi
Deyəcəyəm, bilə-bilə!
Bəsdir daha! Naz etsən də,
Sevəcəyəm, bilə-bilə!



## KİMƏ SÖYLƏYİM?

*"Səndən mənə yar olmaz" operettasından*

Səni görən gündən
Çoxaldı dərdim.
Özüm ürəyimə
Təsəlli verdim.

Könlüm havalanıb
Kimə söyləyim?
Canım yanır, yanır
Kimə söyləyim?

Bilmirəm düzünü
Kimə söyləyim?
Qəlbimin sözünü
Kimə söyləyim?

Sevginin möhnəti
Dözülən deyil,
Əlim yar əlindən
Üzülən deyil.

Könül bağlamışam
Savalan deyib.
Gülüb, – ağlamışam
Savalan deyib.

Bilmirəm düzünü
Kimə söyləyim?
Qəlbimin sözünü
Kimə söyləyim?

## FƏQANLA İNSAFIN MAHNISI

*"Səndən mənə yar olmaz" operettasından*

F ə q a n

Güllər, çiçəklər açır
Sən qarşıma çıxanda.
Könlüm quş olub uçur,
Sən qarşıma çıxanda.

Ürəyim al qan olur,
Həyatım talan olur,
Gözəllər yalan olur,
Sən qarşıma çıxanda.

Sarı rəngim al olur,
Ürəyimdə xal olur,
İnan, dilim lal olur,
Sən qarşıma çıxanda.

İ n s a f

Çəkil, çəkil, söz olar,
Aləm bizə göz olar...

F ə q a n

Bir sevincim yüz olar,
Sən qarşıma çıxanda.

## SÜRƏYYA

Qol çırmayıb sən tarlaya çıxanda
Səs yayılır hər mahala, Sürəyya.
Ağ pambığı becərəndə, yığanda,
Gəlməyəsən heç zavala, Sürəyya.



Əməyin azad,
Diləyin azad.
Ay ellər qızı,
Bu şən ölkəmin
Bəxtəvər qızı!

Şöhrətindən bu el, oba danışır,
Kolxozçular məhsul üçün yarışır,
Tarlalarda tər torpağa qarışır,
Çatmaq üçün bu vüsala, Sürəyya.

Əməyin azad,
Diləyin azad.
Ay ellər qızı,
Bu şən ölkəmin
Bəxtəvər qızı!

Nə xoşbəxtdir bar yetirib dərənlər,
Bu dünyada azad ömür sürənlər,
Döşündəki ulduzunu görənlər,
Əhsən deyir bu cəlala, Sürəyya.

Əməyin azad,
Diləyin azad.
Ay ellər qızı,
Bu şən ölkəmin
Bəxtəvər qızı!

## NEFTÇİLƏR

*Nəğmə*

Göylər təmiz, yollar açıq
Ətrafınız su,
Qolunuza qüvvət verir
Xalqın arzusu.
Əziz neftçilər,
Sizdədir hünər!

Sular üstə qurduğunuz
Hər kiçik ada,
Görün necə əzəmətli
Durur dəryada.
Əziz neftçilər,
Sizdədir hünər!

Mən sizinçün oxuyuram
Bu şən nəğməni.
Qoy eşitsin dənizdəki
Dostlarım məni:
Əziz neftçilər,
Sizdədir hünər!

Baxın, Bakı salamlayır
Ana tək sizi,
Gözəlləşir eşitdikcə
Zəfərinizi.
Əziz neftçilər,
Sizdədir hünər!

Yurdum, elim ilham alır
Qələbənizdən,
Qəhrəmanlar od aldıqca
Sudan, dənizdən.
Əziz neftçilər,
Sizdədir hünər!

## MƏZƏLİ MAHNI

*"Magistral" filmindən*

Qara gözün badam,
O dedi: – yox, yox, yox, yox!
Mənə gəlsin qadan
O dedi: – yox, yox, yox, yox!
Dedim: insaf elə
Dedi: gülə-gülə;
Səndən yar olmaz mənə.



Düz dolan, düz otur ay kişi,
Yaş ötüb deyəsən yetmişi,
Ağzında bir dənə yox dişin,
Bir utan qızına aşiq olarmı adam?

Sənə qurban hacı
O dedi: – yox, yox, yox, yox!
Hacı yar möhtacı,
O dedi: – yox, yox, yox, yox!
Dedim: – ay qız dayan,
Dedi: – olsun həyan,
Səndən yar olmaz mənə,

Düz dolan, düz otur ay kişi,
Yaş ötüb deyəsən yetmişi,
Ağzında bir dənə yox dişin,
Bir utan qızına aşiq olarmı adam?!

## GECƏ MAHNISI

*"Magistral" filmindən*

Sus! Sus! Sus!
yatanları
gecə yarı
oyatmasın
Gur səsimiz.
Laylay deyək onlara biz!
Qoy yatsınlar xumar-xumar,
Şirin, gözəl yuxu görsün
Bakılılar.
Bizə nə var?
Gözəl şəhər,
Gen küçələr,

Yer, asiman,
bütün cahan
evimizdir!
evimizdir!

Sus! Sus! Sus!
yuxudadır,
hamı yatır
Şirin-şirin.
Nə xoş, gözəl gecəsi var
şəhərimin!

Fərəhimiz sığmayır heç
Dam altında dörd divara.
Evimizdir getsən hara,
Gözəl şəhər,
Gen küçələr,
Yer asiman,
bütün cahan
evimizdir!
evimizdir!

## MƏZƏLİ MAHNI

*"Magistral" filmindən*

Qız sevdim Nargilə,
Tutdum şirin dilə.
Dedim gəl əhd eləyək
Ay, qız bundan belə.
sevirəm,
sevirəm,
sevirəm,
Yox, yox, yox,
Qadanı mən alım,
Başına dolanım,
Durulum bulanım,
Ay qız, ay qız.



Neçə gündür inan,
Yata bilmirəm
Vəslinə ey canan,
Çata bilmirəm.
Neyləyim kimə söyləyim
Bu dərdi?

Qadanı mən alım,
Başına dolanım,
Durulum, bulanım,
Ay qız, ay qız.

Ay qız maaşım var;
Altımda maşın var
Hər qəmzən göz üstədir
Bollu daş-başım var,
sevirəm,
sevirəm,
sevirəm,
Mən, mən, mən!
Olmuşam aşiqin,
Gözümün işığı,
Mənim yaraşığım,
Ay qız, ay qız,
Qız dedi: – daş-başın
*Başına dəysin!*
Qadam o sürdüyün
Maşına dəysin!
Neyləyim kimə söyləyim
Bu dərdi!
Qadanı mən alım,
Başına dolanım,
Durulum, bulanım,
Ay qız, ay qız.

## MAHNI

*"Ögey ana" filmindən*

Hər yan əlvan, nə qəşəngdir,
Ətrafımız gül-çiçəkdir.
İşsiz durma gəl dostum bəri.

Bilsin hər uşaq,
Bizimdir bu bağ,

Onun varı, hər nübarı
göy budaqları.

Bel vur, tər tök, belə işlə,
Durma, gülə-gülə işlə
Sev gülləri, gəl dostum bəri,

Bilsin hər uşaq,
Bizimdir bu bağ,

Onun varı, hər nübarı
göy budaqları!

## İNŞAATÇILAR MAHNISI

*"Ögey ana" filmindən*

Qoy yayılsın şən səsimiz
çölə, düzə.
Qoy baş əysin şiş qayalar
gücümüzə!
Dostum, gəl, gəl
Durma, çıxaq yollara,
Qüvvət gəlsin qollara!

Ömrümüz şən, qəlbimiz gen,
üzümüz ağ.
Günlərimiz bir-birindən
Xoş olacaq!



Dostum gəl, gəl
Durma çıxaq yollara,
Qüvvət gəlsin qollara!

Dağ döşündən yol çəkilsin
kəndimizə!
Qoy bu yolla nur tökülsün
kəndimizə!
Dostum, gəl, gəl –
Durma çıxaq yollara,
Qüvvət gəlsin qollara!

## İSMAYILIN MAHNISI

*"Ögey ana" filmindən*

Quşlar, quşlar
Nə gözəl oxuyur,
Bəh, bəh, bəh, bəh
Nə gözəl qoxuyur

Yaşıl, əlvan, sarı ağ
gül-çiçəklər.
Dağların qarılıdır
Bağların barlıdır
Sevirəm mən səni
Gözəl kəndimiz.

Dağlar, dağlar
A qoca dağlar
Dağlar, dağlar
Ay uca dağlar.

Gözəl olur, sizdə
yay, qış, bahar
Yaşıl meşəli,
Azad, nəşəli,
Sevirəm mən səni
Gözəl kəndimiz.

## ÇAY MAHNISI

Kimin ağrıyır canı,
Qoy çay içsin mərcanı,
Min bir dərdin dərmanı,
Çay, çay, çay.

Adın gəzir elləri,
Kimin yoxsa xəbəri
Qoy çay içsin məxməri,
Çay, çay, çay,

Nəqərat

Ürəyimiz yananda
Armudu stəkanda,
Dadlısan, adlısan,
Çay, çay, çay.

Hər kəsə gəlsə qonaq
Lazım deyil soruşmaq,
Verin yeməkdən qabaq,
Çay, çay, çay.

Qışın oğlan çağında,
Yayda gün qabağında,
Gəzirlər sorağında,
Çay, çay, çay.



## BİRİ BİZİM, BİRİ SİZİN DEYİLMİ?

*Gürcü dostlarımıza*

Bir sinədə iki ürək döyünür
Biri bizim, biri sizin deyilmi?
İki şəhər bir-birilə öyünür
Biri bizim, biri sizin deyilmi?

Sumqayıtdan Rustaviyə çıx yola,
Alın təri axıtmışıq hər kola,
Rustaveli Nizamiylə qol-qola
Biri bizim, biri sizin deyilmi?

Bu dostluğa dünya salır nəzəri
Qartueli qardaş bilir bizləri,
Qara dəniz salamlayır Xəzəri,
Biri bizim, biri sizin deyilmi?

Qardaşlığın yenilməyən gücü var,
Tariyel tək milyon igid gürcü var,
Koroğlunun ürəklərdə bürcü var,
Biri bizim, biri sizin deyilmi?

Buynuzlara şərab tökün, a dostlar!
Süfrənizə nə var düzün, a dostlar,
*Yaşa! Vaşa! İki sözün, a dostlar!*
Biri bizim, biri sizin deyilmi?
Hər ikisi ikimizin deyilmi?

## OLUB

Çox daş atma, yaralandım daşından
Yaşamaram, fikrim çıxsa
başından.
Qılınc varmı iti olsun
qaşından?

Kirpiklərin sinəm üstə
ox olub.
Sən əzəllər danışardın,
gülərdin
Söz deməmiş mətləbimi
bilərdin.
Bir qarıyıb, qocalmağı
dilərdin.
Vaxtı ilə dediklərin
yox olub!

Keçdi bahar, ötdü payız, gəldi qış,
O günlərdən indi əsər qalmamış,
Zeynalın da dərdi-dərdə
calanmış,
Amma demir yardan gözüm
tox olub!

## SÜLH MAHNISI

Ana yurdun qucağında
Boy atırıq azad, şən.
Bəslər bizi,
Səslər bizi,
Xoş günlərə bu Vətən.

N ə q ə r a t

Qoy mahnımız hər tərəfi
Ağız-ağız dolaşsın!
Qoy səsimiz keçilməyən
Meşə keçsin, dağ aşsın!

Qəsbkarlar kəsilmişdir
İnsanların düşmanı.



Tökmək istər,
Sökmək istər
Bombalarla dünyanı.

N ə q ə r a t

Yurdumuza bir arxayıq
Qorxumuz yox davadan!
Sülh var olsun!
Bahar olsun!
Yer üzündə hər zaman!

## GƏLDİ BAHAR

Elimin, yurdumun çox baharı var,
Solmayan, al-yaşıl laləzarı var,
Sevən aşiqlərin düz ilqarı var,
Gəldi bahar,
Güldü bahar
Baxtımız kimi.

Canımı verərəm yara sadağa,
Sevmək vətənimdə deyil qadağa;
Amandır, gözümdən getmə uzağa
Gəldi bahar,
Güldü bahar,
Baxtımız kimi.

## NEYLƏSİN?

Qış qurtarar, yay olar,
Oğlan qıza tay olar,
Yar-yarı gözləyəndə,
Bir günü bir ay olar.
Gözləməsin neyləsin?

Oğlan qıza söz deyər
Hər nə desə düz deyər.
Qız oğlana "döz" deyər.
Gözləməsin neyləsin?

Qaş qaralar, şam yanar,
Dərsdədir gül üzlü yar,
Oğlan dözər, dayanar
Gözləməsin neyləsin?

Elçi göndərər qıza,
Ürəyi dönər buza,
Toyu qalar payıza
Gözləməsin neyləsin?

*1965*

## OLAR

Bahar gələndə
Dağların başı
Duman olar;
Duman.

Yar cinlənəndə
Çatılar qaşı
Kaman olar,
Kaman.

Hər qədəm başı
Küsəndə halım
Yaman olar,
Yaman.

Deyirəm gələr;
Danışar, gülər,
Zaman olar,
Zaman.



## KƏNDİMİZ

El oyanar yuxusundan,
Dağ başını alarsa duman,
Elə bil ki, ağ cunadan
Duvağı var kəndimizin.

Saya gəlməz onun varı,
Bərəkətli tarlaları,
Suyu sərin, dağlar qarı,
Bulağı var kəndimizin.

O bir şamdır, mən pərvana,
Alqış, alqış bu dövrana,
Çox mehriban, əziz ana
Qucağı var kəndimizin.

## KƏNDİMİZ

Səhər-səhər dağa, daşa səs düşər
Yuxusundan oyananda kəndimiz.
Bağçalarda şən bülbüllər ötüşər
Qızıl rəngə boyananda kəndimiz.
Yaraşıqlı kəndimiz,
Gur işıqlı kəndimiz.

Bahar vaxtı vardır özgə səfası,
Dilə düşüb sərin suyu, havası,
Nə gözəldir geyib yaşıl libası,
Gəlin kimi dayananda kəndimiz.
Yaraşıqlı kəndimiz.
Gur işıqlı kəndimiz.

Kolxozçular şad yaşayır qış, bahar,
Dərya kimi dalğalanır tarlalar.
Məhsulumuz ildən-ilə bol olar,
Yaşıl donun soyunanda kəndimiz,
Yaraşıqlı kəndimiz,
Gur işıqlı kəndimiz.

## ƏZİZ VƏTƏN

Vətənimiz bir xəzansız bağçadır,
İllər boyu nobaharı var onun.
Yam-yaşıldır ağacları, gülləri,
Hər fəsildə min nübarı var onun.

Anamız sənsən,
Canımız sənsən,
Elin şöhrəti,
Sözü, söhbəti,
Ey əziz vətən.

Döyüş günü yad bağrını qanadan,
Qüdrətilə od çıxaran dəryadan,
Şiş dağları özülündən oynadan,
Fərhad kimi övladları var onun.

Anamız sənsən,
Canımız sənsən,
Elin şöhrəti,
Sözü, söhbəti,
Ey əziz vətən.

Ellərimiz toy paltarı geyinsin,
Vətənimiz fəxr eləsin, öyünsün,
Onun qəlbi qəlbimizlə döyünsün,
Xalqım kimi havadarı var onun.

Anamız sənsən,
Canımız sənsən,
Elin şöhrəti,
Sözü, söhbəti,
Ey əziz vətən.



## BAKI

Üfüqdə hər səhər söküləndə dan,
Şirin yuxusundan oyanan Bakı.
Günəş göy sulardan baş qaldıranda
Al-əlvan rənglərə boyanan Bakı.

Gündüzün əlvan,
Gecən çıraqban,
Odlar məskəni,
Sevirik səni!

Gündüzün qəşəngdir, gecən yaraşıq,
Sənin bu hüsnünə kim olmaz aşıq?
Sahil işıqları olub sarmaşıq,
Xəzərin qoynuna dolanan Bakı.

Gündüzün əlvan,
Gecən çıraqban,
Odlar məskəni,
Sevirik səni!

Söhbətin düşübdür ağıza, dilə,
Şöhrətin yayılıb obaya, elə,
Odlu sinəsindən çıxan, neft ilə, –
Yurdun keşiyində dayanan, Bakı.

Gündüzün əlvan,
Gecən çıraqban,
Odlar məskəni,
Sevirik səni

Necə mehribandır, oynaqdır Xəzər,
Onun sahilini bu ellər bəzər.
Daha xoş günlərə salarkən nəzər,
Ucalan, yüksələn, boylanan Bakı.

Gündüzün əlvan,
Gecən çıraqban.
Odlar məskəni,
Sevirik səni!

## ŞƏHƏRİM!

Parıl-parıl parıldayır küçələr
Ötən bulud səpələyib yağışı.
Mənim Bakım gözəl olur gecələr
Sinəsində milyon işıq naxışı.

Pəncərələr açılmışdır taybatay
Gəl, qulaq as şirin-şirin hər səsə.
Mahnımızla göydə saysız ulduz, ay,
Səhərədək sanki gəlir həvəsə.

Xəzərimin sularına sal nəzər,
Ay işıqlar elə bil ki, ilandır.
Sahilində oğlan gəzər, qız gəzər,
Ceyran, maral deyərsən ki, yalandır.

Qız qalası Bakımızın vüqarı.
Bilinməyir hələ neçə yaşın var.
Qız qalası, qatar-qatar divarı,
Qız qalası, oyuq-oyuq daşı var.

Parıl-parıl parıldayır küçələr
Ötən bulud səpələyib yağışı.
Mənim Bakım gözəl olur gecələr,
Sinəsində milyon işıq naxışı.



## NƏĞMƏ

Sahildən üfüqə dikilib
nəzərim, nəzərim.
Nə gözəl görünür mehriban
Xəzərim, Xəzərim.
Ey dəniz, dalğalan,
Suları səpələ,
Qoy yusun
üzümü, üzümü.
Ey dəniz dalğalan,
Çəkmərəm bircə an
Gözümü, gözümü.
Bakıdan yol alır hər səhər
Gəmilər, gəmilər.
Salamat, xoş olsun bu səfər,
Gəmilər, gəmilər.
Getsəniz hər yana,
Düşməyin tufana.
Baxmayın
küləyə, küləyə.
Gümüşü ağ sular
Qoy şirin arzular
Gətirsin
ürəyə, ürəyə.
Seyr edin Bakımı bir baxın
işığa, işığa.
Mən əziz Bakıya, Xəzərə
Aşiqəm, aşiqəm.
Xəzrisi gur səsim,
İstisi nəfəsim,
Dalğası
Vüqarım, vüqarım.
Mən sənin balanam
Başına dolanam,
Ey gözəl
Diyarım, diyarım!

*1967*

# Uşaqlar üçün

## DƏRS SƏHƏRİ

Hələ səhər açılmamış, günəşdən qabaq,
Yatağından tezcə qalxan uşağa bir bax,
Qıvrım, qara tellərinə çəkdikcə daraq,
O fərəhli gül çöhrəsi necə gözəldir,
Otaq dolu qəhqəhəsi necə gözəldir!

Onun böyük sevincinə ürəyi dardır,
Bu şad günü gözlədiyi yeddi bahardır.
Baxın, baxın, necə şaddır, nə bəxtiyardır,
Kitabları, dəftərləri necə gözəldir,
Məktəblinin ilk səhəri necə gözəldir!

İlk səhəri dedim, bəli, olsun mübarək,
Ürəklərdə xoş arzular açsın gül-çiçək,
Daha xoşbəxt, daha gözəl günlər gələcək,
Kiçik qəlbdə böyük vüqar necə gözəldir,
Məktəblərə gedən yollar necə gözəldir!

Bu yollarla addımladım mən də bir zaman,
O günlərim min yaşasın, çıxmaz yadımdan,
Doğma atam, anam kimi əziz mehriban,
Çox sevdiyim müəllimlər necə gözəldir.
Dərs ilində bu ilk səhər necə gözəldir!

Odur, məktəb qapısında durmuş uşaqlar,
Üzlərində böyük sevincə, böyük fərəh var.
Açılmışdır, bax, laybalay geniş qapılar,
Zəng vurulur, onun səsi necə gözəldir,
Müəllimin dərs deməsi necə gözəldir!



Gedin, gedin məktəblərə, gedin durmadan,
Elm, hünər dövranıdır bizim bu dövran!
Yurdumuzda seyr etdikcə sizi hər insan,
Deyir: xoşbəxt məktəblilər necə gözəldir,
Dərs ilində bu ilk səhər necə gözəldir!

## UŞAQLARA

Bir qız uşağından söyləyim sizə
Üç gündür sifəti getmir gözümdən.
Lap illər keçsə də, gəlsək üz-üzə,
O qızı yenə də tanıyaram mən.

Yaşım qırxa çatıb ağarmış başım,
Gözüm də pis görür eynək taxmasam.
Əlimdən tutmayır daha yaddaşım
Bir şeyə on dəfə azı baxmasam.

Amma o qız mənim yadımda qaldı
Nə özü, nə gözü, nə hörükləri...
Demirəm qəlbimi odlara saldı.
Demirəm gəncliyim dönəydi geri.

O qız, qızım yaşda gözəl uşaqdı
Mənə bağışladı birdən aləmi,
Onda ki, yerindən ayağa qalxdı,
Söylədi: – buyurun, əyləşin əmi.

Mənə əmi dedi tutuldum bir az,
İncidim uşağın bu söhbətindən.
Qəlbimdə etdimsə buna etiraz,
Amma dağa döndüm mərifətindən.

Durub bir kənarda səssiz-səmirsiz
Baxdı mənə sarı o xısın-xısın.
Bəlkə də a dostlar, siz bilirsiniz
Adı, familyası nədir o qızın?